◆ Milli Məclisin iclasında

# Müstəqillik dövrünün ən böyük büdcəsi qəbul edildi

Dekabrın 3-də spiker Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.

Öncə Milli Məclisin Sədri noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin Xızı rayonu ərazisində yerləşən poliqonda təlim uçuşları yerinə yetirərkən qəzaya uğradığını xatırladaraq, qəza nəticəsində 14 hərbi qulluqçunun həlak olduğunu, 2 hərbi qulluqçunun isə yaralandığını qeyd edib. Sahibə Qafarova həlak olanlara Allahdan rəhmət diləyib, yaralı hərbi qulluqçularımıza şəfa arzulayıb. Spikerin təklifi ilə həmin qəzada şəhid olan hərbi qulluqçulara xatirəsi Milli Məclisdə bir dəqiqəlik sükutla yad olunub.

## Sankt-Peterburq və Madriddə Azərbaycan həqiqətləri

Parlament nümayəndə heyətinin Sankt-Peterburq və Madrid səfərləri barədə Milli Məclisə məlumat verən sədr bildirib ki, 24-26 noyabr tarixlərində Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfərdən məqsəd MDB PA-nın Şura və 53-cü plenar iclaslarında iştirak etmək olub. Qeyd edib ki, Azərbaycan parlamenti nümayəndə heyətinin iştirak etdiyi ilk tədbir noyabrın 25-də keçirilən beynəlxalq konfrans olub.

Sahibə Qafarova nəzərə çatdırıb ki, konfransda etdiyi çıxışda digər məsələlərlə yanaşı, Azərbaycanın COVID-19 pandemiyasına qarşı qlobal səylərə verdiyi töhfələr, ölkəmizdə bu bəla ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu sahədə gördüyü işlər və səhiyyə sistemində əldə edilən uğurlar haqqında da məlumat verib.

Deputatların diqqətinə çatdırılıb ki, noyabrın 26-da MDB Parlamentlərarası Assambleyasının 53-cü plenar iclasında çıxış edərkən Milli Məclisin Sədri bir sıra məsələlərə münasibət bildirməklə yanaşı, 44 günlük Vətən müharibəsində Qələbə sayəsində azad olunan ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işlərinə başlandığı barədə də məlumat verib.

Daha sonra noyabrın 26-dan 28-dək Parlamentlərarası İttifaqın 143-cü Assambleyasında və Assambleya çərçivəsində Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis iclasında iştirakla əlaqədar İspaniyanın paytaxtı Madriddə işgüzar səfəri barədə məlumat verən Sahibə Qafarova bildirib ki, noyabrın 27-də Parlamentlərarası İttifaqın 143-cü Assambleyası keçirilib. Toplantıda “Demokratiyanın üzləşdiyi müasir çağırışlar” mövzusunda müzakirələr aparılıb. Sahibə Qafarova Assambleyada çıxış edərək 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanmış üçtərəfli Bəyanatla Dağlıq Qarabağ münaqişəsinə son qoyulduğunu və bu münaqişənin artıq tarixə qovuşduğunu çatdırıb.

*Ardı 2-ci səh.*

# Müstəqillik dövrünün ən böyük büdcəsi qəbul edildi







Əvvəli 1-ci səh.

Deputatlara məlumatında spiker qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsünə uyğun olaraq, noyabrın 28-də Madrid şəhərində Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis iclası keçirilib. 50-yə yaxın ölkədən 200-ə qədər nümayəndənin iştirak etdiyi təsis iclasını Sahibə Qafarova açıb. Çıxışında qeyd edib ki, 60 il əvvəl yaradılan Qoşulmama Hərəkatının təsisçilərinin məqsədi Bandunq prinsiplərinə tam uyğun olaraq, bütün xalqların dinc yanaşı yaşamasına və davamlı inkişafına töhfə vermək idi. Onların uzaqgörənliyi və məqsədyönlüyü dünyada ikinci ən böyük beynəlxalq təsisatın formalaşmasına gətirib çıxarıb.

Parlamentin Sədri tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, təşkilatın 2019-cu il oktyabrın 25-26-da Bakıda keçirilmiş Zirvə toplantısında dövlət və hökumət başçıları Qoşulmama Hərəkatının iştirakçısı olan dövlətlərin parlament üzvləri ilə qarşılıqlı əlaqəni və əməkdaşlığı genişləndirmək və dərinləşdirmək barədə qərar qəbul ediblər. Azərbaycan bu anlayışlara əsaslanan sədrliyi dövründə hərəkatın fundamental prinsiplərinə tam və səmərəli riayət olunmasında parlament üzvlərinin mühüm rol oynaya biləcəyini qəbul edərək, Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış edib.

Sədr bildirib ki, onun moderatorluğu ilə təsis iclasında 17 nəfər çıxış edib və iclasın sonunda Parlamentlər Şəbəkəsinin təsis edilməsinə dair Madrid Bəyannaməsi qəbul olunub. Spiker Parlamentlər Şəbəkəsinin növbəti tədbirinin gələn il Bakıda keçiriləcəyini qeyd edib.

## Gələn ilin büdcəsi iqtisadiyyatımızın artımını davam etdirəcək

Plenar iclasda səfərlər barədə məlumatlar dinlənildikdən sonra 33 məsələdən ibarət gündəlik təsdiqlənib. Milli Məclisin Sədri məlumat verib ki, gündəliyin ilk 22 məsələsi büdcə zərfinə daxil olan qanun layihələridir.

İclasda gündəlikdəki məsələləri təqdim edən komitə sədrləri və çıxış edən deputatlar uğurlu keçən Sankt-Peterburq və Madrid səfərləri münasibətilə parlament nümayəndə heyətini təbrik ediblər. Vurğulayıblar ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis olunması tarixi hadisədir, Azərbaycanın beynəlxalq aləmdə böyük uğurudur. Deputatlar Madrid Bəyannaməsinin qəbul olunmasını yüksək qiymətləndiriblər.

Plenar iclasda "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib. Bildirib ki, müstəqil Azərbaycanın manat ifadəsində ən böyük büdcəsi kimi xarakterizə olunan 2022-ci ilin dövlət büdcəsinin layihəsi Milli Məclisin komitələrində və plenar iclaslarda ətraflı və geniş müzakirə olunub. Maliyyə və iqtisadiyyat nazirləri, Mərkəzi Bankın, Hesablama Palatasının və digər dövlət orqanlarının rəhbərləri layihələr barədə həm komitə iclaslarında, həm də plenar iclaslarda ətraflı məlumat veriblər, müzakirələrdə aktiv iştirak ediblər.

Vurğulanıb ki, büdcə müzakirələri dövlət başçısının tövsiyələrinə və dövrün tələblərinə uyğun olaraq bu il daha əhatəli, inklüziv formada təşkil edilib, deputatları maraqlandıran suallara dövlət orqanları, həmçinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən müvafiq cavablar və izahatlar verilib.

## Yeni büdcə vətəndaşların sosial rifahının yaxşılaşmasına şərait yaradacaq

İşğaldan azad olunmuş ərazilərin sürətlə iqtisadiyyatımıza inteqrasiya olunması üçün büdcədə nəzərdə tutulan maliyyə vəsaitini xüsusi qeyd edən Tahir Mirkişili bildirib ki, Hesablama Palatası da büdcə layihəsinə müsbət rəy verib.

Deputatların nəzərinə bir daha çatdırılıb ki, 2022-ci ilin dövlət büdcəsi layihəsində gəlirlər 1 milyard 389 milyon manat artırılaraq 26 milyard 816 milyon manata, xərclər isə 1 milyard 336 milyon manat artırılaraq 29 milyard 879 milyon manata çatdırılıb. Gələn il üçün büdcə kəsiri 3 milyard 63 milyon manat, inflyasiya 4 faiz, ÜDM-in real artım tempi 3,9 faiz, neftin 1 barelinin qiyməti 50 dollar məbləğində nəzərdə tutulub.

Deputatların bir sıra təkliflərinin hökumət tərəfindən nəzərə alındığını vurğulayan komitə sədri layihələrdə aparılmış dəyişikliklər barədə də ətraflı məlumat verib.O, üçüncü oxunuşda müzakirəyə çıxarılmış dövlət büdcəsi layihəsinin 2022-ci il üçün ölkəmizin qarşısında yaranacaq çağırışlara layiqli cavab vermək və bütün istiqamətlərdə, o cümlədən sosial təhlükəsizlik istiqamətində dövlət siyasətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacağını bildirib.

İclasda "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyulub və üçüncü oxunuşda qəbul edilib.

Plenar iclasda "Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihəsini təqdim edən Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, nəzərdə tutulan büdcə gələn il sosial müdafiəyə ehtiyacı olan bütün vətəndaşlarımızın rifahının qorunub saxlanılmasına və yaxşılaşmasına imkan verəcək. Həmçinin 2022-ci ildə pensiyaların, müavinət və təqaüdlərin, ünvanlı sosial yardımın həcminin və digər sosial ödənişlərin artırılmasına, eləcə də vətəndaşların sosial rifahının daha yaxşı təmin olunmasına şərait yaradacaq.

İclasda "Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib. "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihəsi barədə məlumat verən komitə sədri Musa Quliyev nəzərə çatdırıb ki, bu büdcə gələn il işsiz vətəndaşlarımızın böyük bir qrupunun özünüməşğulluqla təmin olunmasına şərait yaradacaq. Büdcə 17 minə yaxın ailənin özünüməşğulluq proqramını maliyyələşdirməyə imkan verəcək. Onların arasında əsas yeri şəhid ailələri, Qarabağ qaziləri və digər sosial müdafiəyə ehtiyacı olan şəxslər tutacaq.

Deputatlar üçüncü oxunuşda səsə qoyulan "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsini dəstəkləyiblər.



Plenar iclasda "Azərbaycan Respublikasında 2022-ci il üçün yaşayış minimumu haqqında" (üçüncü oxunuş) qanun layihəsi barədə komitə sədri Tahir Mirkişilinin məlumatı dinlənildikdən sonra sənəd səsə qoyulub və üçüncü oxunuşda qəbul edilib.

"Azərbaycan Respublikasında 2022-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verən komitə sədri Musa Quliyev bir daha qeyd edib ki, 2022-ci ildə ehtiyac meyarının həddi 30 manat artırılaraq 200 manata çatdırılıb. Bu, 17,6 faiz artım deməkdir. Bildirib ki, bu artım yoxsul vətəndaşlarımızın sosial müdafiəsinin daha da gücləndirilməsinə, ünvanlı sosial yardım alan vətəndaşlarımız üçün həm adambaşına, həm də ailəyə düşən vəsaitin həcminin artırılmasına imkan verəcək. Bu, proqrama cəlb olunan vətəndaşların sayının da artırılmasına şərait yaradacaq. Eyni zamanda bu artım imkan verəcək ki, biz yaxın dövrdə ehtiyac meyarından imtina edərək onu yaşayış minimumuna bərabərləşdirək.

Səsvermə zamanı deputatlar "Azərbaycan Respublikasında 2022-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsini də üçüncü oxunuşda təsdiqləyiblər.

Büdcə zərfindəki növbəti qanun layihələri barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məlumat veriblər. İclasda fikir mübadiləsi aparılıb, qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub və qəbul edilib.

Parlamentdə "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

Deputatlar "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Sosial sığorta haqqında", "Nağdsız hesablaşmalar haqqında", "İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Dövlət satınalmaları haqqında", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələrinə üçüncü oxunuşda müsbət münasibət bildiriblər.

İclasda "Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Dərman vasitələri haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi də üçüncü oxunuşda təsdiqlənib.

Həmçinin "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" və "Sığorta fəaliyyəti haqqında" qanunlarda, "Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələrinə üçüncü oxunuşda müsbət münasibət bildirilib.

## 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyasının layihəsi dövlət başçısına təqdim edilib

Büdcə zərfinə daxil olan qanun layihələri qəbul edildikdən sonra Azərbaycan Pespublikasının Baş naziri Əli Əsədov Milli Məclisdə çıxış edib.

Baş nazir İspaniyanın Madrid şəhərində Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis olunmasını tarixi hadisə adlandıraraq bu münasibətlə Milli Məclisin Sədrinə və deputatlara təbriklərini çatdırıb.

Sonra Əli Əsədov 2022-ci ilin dövlət büdcəsinin parlamentdə səmərəli müzakirələrindən danışaraq deputatların qaldırdıqları məsələlərə əsasən hökumət tərəfindən müvafiq addımların atıldığını qeyd edib. Baş nazir müstəqil Azərbaycanın ən böyük büdcəsi olan növbəti ilin dövlət büdcəsinin Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun bir il əvvəl işğalçı Ermənistan üzərində şanlı Zəfərindən sonra yaranan siyasi, sosial-iqtisadi şəraitin şərtləndirdiyi yeni çağırışlara cavab verdiyini vurğulayıb.

Əli Əsədov Prezidentin təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq hökumətin 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası layihəsini hazırlayaraq artıq dövlət başçısına təqdim etdiyini bildirib.Vurğulanıb ki, növbəti ildə də iqtisadi fəallığın təmin edilməsi, makroiqtisadi sabitliyin qorunması və milli valyutanın məzənnəsinin dayanıqlığının artırılması, sosial müdafiə və pandemiya ilə mübarizə tədbirlərinin ardıcıl davam etdirilməsi, işğaldan azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası, ölkənin hərbi qüdrətinin artırılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi kimi məsələlər Prezident İlham Əliyev tərəfindən hökumətin qarşısında əsas prioritetlər kimi müəyyən edilib.

Baş nazir büdcə müzakirələrində deputatların təmsil etdikləri regionların infrastruktur, xidmətlərin keyfiyyəti kimi problemlərin həlli təklifləri ilə bağlı bildirib ki, bu məsələlər Prezidentin daimi diqqət mərkəzindədir və onların vaxtında həlli istiqamətində hökumət məqsədyönlü işlər görür.

Azərbaycanda qazlaşdırmanın 96,3 faizə çatdığı və bütün rayonlar üzrə qazlaşdırmanın başa çatdırılmasının hökumətin əsas hədəflərindən biri olduğu xüsusi vurğulanıb.

Vətən müharibəsindən sonra ölkəmizin gələcəyə baxışı və regionun iqtisadi inkişafı baxımından həyata keçirilən irimiqyaslı nəqliyyat-kommunikasiya layihələrinin vacibliyinə toxunan Əli Əsədov Azərbaycanın tranzit mövqeyinin möhkəmləndirilməsindən danışıb. COVID-19 pandemiyasının gələn il də hökumətin diqqət mərkəzində olacağından bəhs edən Baş nazir vaksinləşmənin daha səmərəli və sürətlə aparılması üçün nəzərdə tutulan tədbirlərdən söz açıb.

Gələn ilin büdcəsinin 46 faizinin, cari xərclərin 69 faizinin sosialyönümlü olduğunu bildirən Baş nazir vurğulayıb ki, Prezidentin hökumət qarşısında qoyduğu vəzifələrə uyğun olaraq 2022-ci ilin dövlət büdcəsində əhalinin sosial rifahının qorunmasına və sosial təminatının yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin, sosial ödənişlərin, aztəminatlı ailələrin, sosial cəhətdən həssas qruplardan olan vətəndaşların dəstəklənməsi üçün kifayət qədər maliyyə vəsaiti nəzərdə tutulub.Vurğulanıb ki, şəhid ailələrinin, müharibə əlillərinin, qazilərin sosial müdafiəsinin gücləndirilməsi, onların sosial-məişət şəraitinin yaxşılaşdırılması hökumətin daimi diqqət mərkəzindədir.

Baş nazir deputatları əmin edib ki, dövlət büdcəsinin icra edilməsində şəffaflığın və hesabatlılığın artırılması, dövlət vəsaitlərindən daha səmərəli istifadə olunması üçün maliyyə intizamı daha da gücləndiriləcək. Eyni zamanda millət vəkillərinin bir çox sahələrə verilən əhəmiyyətli güzəşt və subsidiyalara baxmayaraq, lazımi nəticələrin əldə olunmaması ilə bağlı ifadə etdikləri narahatlıqlara əsasən, bu istiqamətdə də nəzarət ciddi şəkildə artırılacaq.

Baş nazir vurğulayıb ki, hökumətin parlamentlə büdcə prosesində səmərəli və konstruktiv əməkdaşlığı bundan sonra da davam etdiriləcək. Qeyd olunub ki, büdcə müzakirələri çərçivəsində millət vəkillərinin qaldırdıqları bütün məsələlər hökumət və aidiyyəti qurumlar tərəfindən nəzərə alınacaq, onların aradan qaldırılması üçün mümkün tədbirlər görüləcək.

Əli Əsədov aparılan işgüzar müzakirələrə, verilən dəyərli təklif və tövsiyələrə görə Milli Məclisin rəhbərliyinə və bütün deputatlara təşəkkürünü bildirib.

## Milli Məclis yeni yubiley medallarının xeyir-duasını verdi

İclasda "Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il üçün xərclər smetası haqqında" və "Azərbaycan Respublikası Hesablama Palatasının 2022-ci il üçün xərclər smetası haqqında" Milli Məclisin qərar layihələri təsdiqlənib.

Sonra deputatlar "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" yubiley medalının və "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəyə üçüncü oxunuşda müsbət münasibət bildiriblər.

İclasda ikinci oxunuşa təqdim olunmuş "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)" yubiley medalının, həmçinin "Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" medalının və "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişikliklər edilməsi barədə iki məsələyə də baxılıb və hər 2 qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Gündəlikdəki növbəti məsələ barədə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin ətraflı məlumatı dinlənildikdən sonra deputatlar "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi barədə" qanun layihəsinə də müsbət münasibət bildiriblər.

Sonra plenar iclasda birinci oxunuşda müzakirəyə təqdim olunmuş 5 qanun layihəsinə baxılıb. Həmin qanun layihələri barədə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyevin, Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın şərhləri dinlənilib. Qeyd edilib ki, birinci oxunuşa təqdim olunmuş qanun layihələrinin müzakirədən keçdiyi komitələrin rəyləri öyrənilib, fikir mübadiləsi aparılıb.

İclasda "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi və Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə", Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında, "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası qanunlarının ləğv edilməsi barədə" qanun layihəsi birinci oxunuşda qəbul olunub.

İclasda "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" və "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda qəbul edilib.

Plenar iclasın yekununda "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" (birinci oxunuş) məsələyə baxılıb. Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli nəzərə çatdırıb ki, bu qanuna dəyişiklik edilməsi təklifi Hüquq siyasəti və dövlət quruculuğu komitəsi tərəfindən irəli sürülmüşdü. Təklifin mahiyyəti ondan ibarətdir ki, "Məhkəmələr və hakimlər haqqında" qanunun 93-4-cü maddəsinə uyğun olaraq, müstəsna hallarda hakimlər təyin olunurlar. O şəxslər ki, yüksək mənəvi keyfiyyətlərə, hüquq sahəsində 20 illik iş stajına, xüsusi nüfuza və böyük iş təcrübəsinə malikdirlər, onlar testdən kənar üsulla Məhkəmə-Hüquq Şurasının və cənab Prezidentin təklifi ilə parlamentdə təyin olunmuşlar. Birinci vitse-spiker bildirib ki, indiyədək həmin şəxslərin 20 illik iş stajı hakimlik stajına hesablanmırdı. Komitənin bu təşəbbüsü mövcud olan həmin uyğunsuzluğu aradan qaldırmış olur, Maliyyə Nazirliyinin də bu məsələ ilə bağlı müsbət rəyi var. Belə ki, müzakirəyə çıxarılmış layihəyə görə həmin şəxslərin hüquqşünas ixtisası üzrə dövlət orqanlarında (qurumlarında) əvvəlki iş stajı, habelə elmi və pedaqoji fəaliyyət müddətinin onların hakimlik stajına hesablanması təklif olunur.

Fikir mübadiləsi aparılıb və deputatları maraqlandıran məsələlərə aydınlıq gətirilib. Deputatlar "Məhkəmələr və hakimlər haqqında" qanun layihəsinə dəyişikliyi birinci oxunuşda qəbul ediblər.

Müzakirələr zamanı komitə sədrləri Siyavuş Novruzov, Ziyafət Əsgərov, deputatlar Şahin Seyidzadə, Ceyhun Məmmədov, Fazil Mustafa, Etibar Əliyev, Bəhruz Məhərrəmov rəy və təkliflərini diqqətə çatdırıblar.

Bununla da Milli Məclisin iclası başa çatıb.

***Rəşad BAXŞƏLİYEV,***
***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.-4 dekabr.- S.1-2.